# Bakıda ukraynalı müəlliflərin iqlim haqqında kitabının təqdimatı və "Ukrayna kitab rəfi"nin açılışı olub

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasında ukraynalı müəlliflər Dmıtr Kuzmenko və Katerına Terletskayanın uşaqlar üçün yazdıqları və Azərbaycan dilinə tərcümə olunmuş "İqlim sənin əlindədir" kitabının təqdimatı olub.**

Tədbirin kuratorları qismində Ukrayna-Türk Mərkəzinin həmtəsisçisi Marına Qonçaruk və XAN Nəşriyyatının direktoru Səbuhi Şahmursoy çıxış ediblər. Tədbir çərçivəsində açılan "Ukrayna kitab rəfi" oxucuların ixtiyarına verilib, mütaliəni sevən azyaşlılar Respublika Uşaq Kitabxanasında buradakı kitablarla tanış ola bilərlər.

AZƏRTAC xəbər verir ki, tədbirdə Ukraynanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Yuri Qusev, ukraynalı millət vəkili Sergey Naqornyak, Mədəniyyət Nazirliyinin əməkdaşı Kəmalə Əliyarova, Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov, "Hədəf" Şirkətlər Qrupunun direktoru Şəmil Sadiq məktəblilər və ukraynalı uşaqlar iştirak ediblər.

Katerına Terletska və Dmıtro Kuzmenkovun müəllifi olduğu "İqlim sənin əlindədir" adlı kitab "Hədəf" nəşriyyatı tərəfindən Ukrayna Tərcümə İnstitutunun dəstəyi ilə nəşr edilib. Kitabda iqlim dəyişmələrinin uşaqlara daha müfəssəl şəkildə çatdırılmasında 17 təcrübə təqdim edilib və bu təcrübələrin keçirilməsi üçün təlimat, lazım olan vəsaitlərin hər biri qeyd olunub.

Tədbiri giriş sözü ilə açan kitabxananın direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova qeyd edib ki, kitab Prezident İlham Əliyevin Sərəncamı əsasında ölkədə elan edilən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində uşaq və yeniyetmələrə yaxşı töhfə olacaq.



Ukraynanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Yuri Qusev tədbirdə Azərbaycan xalqına və kitabxana rəhbərliyinə Ukrayna dilindən Azərbaycan dilinə tərcümə olunan kitabın və "Ukrayna kitab rəfi"nin təqdimatının keçirilməsinə görə təşəkkür edib. O qeyd edib ki, bundan sonra da Ukrayna-Azərbaycan arasındakı dostluğu möhkəmləndirmək üçün səy göstərəcəklər.

Ukraynanın millət vəkili Sergey Naqornyak çıxışında Bakıya səfərindən məmnunluğunu ifadə edib. O diqqətə çatdırıb ki, kitab ukraynalı gənc alimlər və müəlliflər tərəfindən yazılıb və uşaqlar üçün ekoloji eksperimentləri, ətraf mühitin mühafizəsi ilə bağlı bilikləri ehtiva edir. "Biz inanırıq ki, bu kitab qarşıdan gələn COP-29 tədbiri üçün yaxşı bir töhfədir", - deyə ukraynalı deputat vurğulayıb.

"Hədəf" Şirkətlər Qrupunun direktoru Şəmil Sadiq təqdim olunan kitab haqqında ətraflı məlumat verib, yüksək peşəkarlıqla görülmüş işə görə müəlliflərə, tərcüməçilərə və naşirlərə təşəkkürünü bildirib. O, həmçinin yay tətilində həm əylənib, həm də nəzəri təcrübələrə əsaslanan biliklərə yiyələnməyi istəyənlərə bu kitabı tövsiyə etdiyini söyləyib.

Təqdimatda "Hədəf" liseyinin şagirdlərinin "İqlim sənin əlindədir" kitabından seçərək təqdim etdikləri təcrübələr böyük maraqla qarşılanıb.

Qeyd edək ki, Ukraynanın birinci xanımı Yelena Zelenskaya sosial şəbəkələrdəki rəsmi səhifələrində tədbirlə bağlı məlumat paylaşıb və "Ukrayna kitab rəfi"nin açılmasında əməyi olan hər kəsə təşəkkür edib.

Tədbirin sonunda Respublika Uşaq Kitabxanasında Ukrayna uşaq ədəbiyyatı əsasında hazırlanmış kitab sərgisinə baxış keçirilib və xatirə şəkilləri çəkdirilib.

Azərbaycan. - 2024.- 5 sentyabr (№ 192).- S.9.